DOI: https://www.doi.org/10.36719/2663-4619/65/366-369

**Mələk Nazim qızı Rzayeva**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
rzaeva.m15@gmail.com

# ÇAĞDAŞ DÖVLƏTLƏRARASI KONFESSİONAL FAKTORLU MÜNAQİŞƏLƏRİN NİZAMLANMA PROBLEMLƏRİ

***Açar sözlər:*** *sivilizasiya, din, konfessional amil, dövlətlərarası qarşıdurma, münaqişələrin nizamlanması*

**The problems of resolving contemporary interstate confessional conflicts**
**Summary**

The essence, role and significance of the religious factor in the conflicts that have arisen in the new world order have become one of the most pressing problems of humanity today. The problems associated with the settlement and resolution of conflicts related to the coexistence of different religions in our time, in each case due to the mixing of socio-political conflicts. Peaceful resolution of religious-political conflicts has become the most important activity to enhance security and stability in today's world. Thus, this article examines the problems of conflict resolution and ways to resolve them.
***Key words:*** *civilization, religion, confessional factor, interstate confrontation, conflict resolution*

## Giriş

Qloballaşan dünya nizamı şəraitində yaranan qarşıdurmalarda dini amilin mahiyyəti, rolu və əhəmiyyəti bu gün bəşəriyyətin ən aktual problemlərindən biridir. Bu aktuallığın əsas səbəblərindən biri kimi, siyasi-ictimati həyatı dərketmə din vasitəsilə olduğu vurğulanır. Çağdaş dövrdə siyasi qarşıdurmalarda din amili əhəmiyyətli rol oynamağa davam edir. Bütün dünyada professor Samuel Hantiqtona məxsus sivilizasiyyaların toqquşması nəzəriyyəsi ən önəmli müzakirə mövzusudur. Onun fikrincə, müasir dünyada artıq ixtilafların mənbəyi iqtisadiyyat və ya ideologiya deyil, əsas qarşıdurma mənbəyi mədəniyyət tərəfindən təyin olunacaqdır. Sivilizasiyaların toqquşması dünya siyasətində hakim amilə çevriləcəkdir. Qeyd olunur ki, sivilizasiyanın əsas müəyyənedici xüsusiyyəti dindir. (4) Din amili mədəni fərqləri kəskin şəkildə ortaya çıxaran ən güclü komponentdir. Dini amil cəmiyyətdəki konkret tarixi və ictimai-siyasi situasiyaya bağlı olaraq fərqli bir rol oynaya bilər. Sosial böhranlar dövründə din faktoru müxtəlif ictimai-siyasi qrupların öz maraqları üçün istifadə etdikləri ən təsirli qüvvələrdən birinə çevrilə bilir. Dini faktorlu qarşıdurmaların səbəbləri, tarixi, ərazi, siyasi, sosial, kulturoloji və digər xarakterik cəhətlərin ziddiyyətlər kompleksi kimi təqdim edilə bilər ki, bu da müəyyən şərtlər daxilində kütləvi zorakılıq tətbiq olunmaqla konfessional bir qarşıdurma şəklində təzahür edə bilər. Müxtəlif etnik qrupların və konfessiyaların birgəyaşayışı ilə bağlı qarşıdurmaların müasir dövrdə nizamlanması və həll yolları ilə əlaqəli problemlər ictimai-siyasi ziddiyyətlərin qarışıqlığı ilə şərtləndirilir. Bu səbəbləri təhlil edərkən və konfessional faktorlu konfliktlərlə bağlı əksəriyyətinin həll yollarını təklif edərkən, onların hansı səviyyədə meydana gəldiyini nəzərə almaq lazımdır. Bu baxımdan dini-siyasi faktorlu münaqişələrin nizamlanması və sülh yolu ilə həlli müasir dünyada təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi üçün ən mühüm fəaliyyət sahəsi halına çevrilib.

## Əsas nizamlanma problemləri və həll yolları

Dövlətlərarası səviyyədə baş verən konfessional xarakterli qarşıdurmaların həll yollarından bəhs edərkən, qeyd etmək mütləqdir ki, burada mütləq dəyərlərin toqquşması olduğundan, bu münaqişələr çox vaxt xroniki bir xarakter daşıyır və praktik olaraq həlli mümkün olmur. Bu tip konfliktlərdə tərəflərin məqsədlərinə çatmaqda tək yol güc deyil, lakin eyni zamanda zorakı yolla həll etmək cəhdləri bu problemin həlli üçün bəlkə də yeganə təsirli vasitədir. Dini amilin də rol oynadığı bu münaqişələrdə ideoloji məğzi kənarlaşdıraraq qarşıdurmanı maraqların toqquşması kontekstinə çevirməklə nizamlamanı təmin etmək mümkündür. Burada vacib ilkin şərt kimi davamlı inkişaf rejiminin bərpası və geosiyasi kontekstin münaqişədən uzaqlaşdırılması çıxış edir.

Davamlı inkişaf rejiminin bərpası, dövlət hakimiyyətinin münaqişə ərazisi sərhədlərində hüquqi bərpasını nəzərdə tutur ki, belə situasiyada, əsasən öz səlahiyyətləri çərçivəsində mülki hüquqi məsuliyyəti bərpa etmək iqtidarı ilə müyyən olunur. Belə halda qarşıdurma tərəflərinin konfessional mənsubiyyətindən asılı olmayaraq sosial-iqtisadi vəziyyəti müsbət dəyişikliyə doğru bir meyl irəliləməsini təmin etmək lazımdır. İkinci halda isə öz geoiqtisadi strategiyasını qoruyub saxlayarkən münaqişəyə digər xarici qüvvələrin diplomatik, hərbi, informasiya və başqa formalarda geosiyasi müdaxiləsindən razılaşdırılmış şəkildə imtina olunmasını nəzərdə tutur. Bu

yanaşmanın nəticəsində, ümumi vəziyyətin stabilləşməsi və bölgədəki təhlükəsizlik strukturunun gücləndirilməsi, o cümlədən konfessional tolerantlıq səviyyəsinin artmasını təmin etmək mümkündür.

Digər bir yanaşma da mövcuddur ki, münaqişə tərəfləri arasında milli və qlobal səviyyədə münasibətlərin təşkilində dini dünyagörüşü ilə dünyəviləşmə əlaqəsini balanslaşdırmaqla münaqişənin nizamlanmasını həyata keçirmək olar. Belə vəziyyətdə, sekulyar düzənin qəbul olunmuş dini institut və ənənələr üzərində diktəsindən imtina olunması məqsədəuyğundur. Ənənəvi və humanist-liberal dəyərlərin bir yerdə yaşamasına yönəlmiş mədəniyyətlərarası dialoqa çağırılan beynəlxalq təşkilatlar səviyyəsində qapalı olmamalıdır.

Konfessiyalar arasında normal əlaqələrin təmin olunması mühüm siyasi-sosial əhəmiyyətə malikdir. Dini qurumlar arasında faktiki və rəsmi bərabərliyi, eyni zamanda onların hüquq və qanunlar qarşısında bərabərliyi vacibdir. Heç bir din başqalarından üstün olmamalıdır. Vicdan azadlığı məsələlərində dövlət tərəfsiz olmalıdır. Dövlətlərin dinlərarası bərabərlik və tolerantlığı təmin etmək öhdəliyi ilə yanaşı, siyasətdə də bunu praktik olaraq həyata keçirmək üçün lazım olan işlər görülməlidir. Dinlərarası münasibətlərin inkişafının təmin edilməsində ən vacib insanların şüuru daxil olmaqla, cəmiyyətdə, məişətdə, gündəlik həyatda tolerant ənənələrin bərqərar olmasıdır. Dini tolerantlıq və dünyagörüşü və mənəvi plüralizm ruhunda ictimai şüurun formalaşması bazar iqtisadiyyatının yetkinləşməsindən, vətəndaş cəmiyyətinin, müasir hüquq dövlətinin yaradılmasından, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsindən asılıdır. Dinlərarası münasibətlər probleminin kardinal həlli üçün bütün insanları vahid ümummilli bir ideyada birləşdirmək mühümdür. Belə bir məsələ, konfessional fikirlərdən, bir sosial qrupun dəyərlərindən daha yüksəkdə durmalıdır. Ümumiyyətlə, bir dini prioritetə çevirməkdə israr etmək, milli birlik yaradan deyil, əksinə, dövlətçiliyin çökməsinə aparan yoldur. Müxtəlif konfessiyalara mənsub nümayəndələrin bir ölkənin, bir cəmiyyətin vətəndaşı kimi eyni dərəcədə rahat hiss edəcəkləri milli kimliyi inkişaf etdirmək və yetişdirmək lazımdır.

Ümumiyyətlə, konfessional faktorlu dövlətlərarası münaqişələr həll baxımından çox mürəkkəbdir. Bu tip münaqişələrin həllini kəskin şəkildə çətinləşdirən əsas nüanslar ondan ibarətdir ki, ilk növbədə, kökləri keçmişə və əsaslı-əsassız tarixi faktlara, müqəddəs mətnlərə dayanır; digər tərəfdən, burada aqressiv emosional şərait mövcuddur; üçüncüsü isə bu tipli münaqişələri çox vaxt həll etmək mümkün olmur, yəni münaqişəni aktiv fazadan çıxarmaq mümkündür, lakin tamamilə aradan qaldırmaq olmur. Təbii ki, belə vəziyyətdə, konfessionallıqla yanaşı münaqişəni yaradan, xüsusilə, silahlı zorakılığa səbəb olan, sabitliyi pozan və dağıdıcı nəticələr doğuran amilləri müəyyənləşdirmək, tərəfləri və onların resurslarını təhlil etmək, münaqişəni meydana gətirən səbəbləri təsirsiz hala gətirmək və qarşıdurmanı aradan qaldırmağa kömək edən tədbirləri axtarmaq, bir sözlə, əsas diqqəti konfliktoloji ekspertizaya yönəltmək lazımdır.

Konfessionallıq baxımdan ziddiyətlərin sülh yolu ilə həll edilməsinin mürəkkəb xarakteri ilə bağlı bir neçə əsas məqam qeyd olunmalıdır. Birincisi, dünyagörüş və dəyərlər sistemindəki müxtəliflik ünsiyyətdə çətinliklər yaradır. Fərqli dünyagörüşlü aktorlar üçün bir-birlərini anlamaq mürəkkəb hal alır. Bu da qarşıdurma ilə nəticələnir. Belə nümunə, İsrail-Fələstin münaqişəsindəki hər iki tərəfdəki dini və qeyri-dini qrupların fərqli mənalar yüklədiyi “torpaq” ifadəsidir. Nəticə olaraq, “torpaq” ifadəsini istifadə edərkən danışıqlar aparmaq anlaşılmazlığa səbəb olur, çünki fərqli qruplar bu termini eyni şəkildə başa düşmür. Bundan əlavə, dini inanclar olduqca emosional fondadır, bu da dini məsələlərdə toqquşmalarda münasibətləri daha da çətinləşdirir. Ümumiyyətlə, klassik münaqişələrdə bir çox hallarda kompromisə getmək mümkün olsa da, münaqişədə güclü inanclar mövcud olduqda bu mümkün olmaya bilər. Güclü və köklü inanclara malik aktorlar digər aktorları tərəf müqabili kimi qəbul etmək istəməyə bilər, yəni başqa inanclara mənsub aktorlara qarşı yüksək dərəcədə dözümsüzlük mövcuddur. İkinci bir məqam bölünməzlik problemini vurğulayır ki, bu da ümumiyyətlə tərəflər eyni müqəddəs mənbələrə can atdıqda tətbiq olunur. Bölünməzliyin bir cəhəti, məsələni bərabər dəyərli başqa bir şeyə dəyişdirməyin mümkünsüzlüyünə aiddir. Məsələn, Qüdsün oxşarını inşa etmək və ya Qüdsü tərk etmək məqsədilə maddi təzminat təklif etmək nə israillilər, nə də fələstinlilər üçün məqbul bir həll deyil, çünki Qüdsə verilən dəyər əvəzolunmazdır. (7, s.3) Bölünməzliyin digər tərəfi, münaqişə tərəflərinin bir məsələnin bölünəcəyi təqdirdə dəyərini itirəcəyi anlayışıdır. Buna hər hansı ərazinin bütövlüyünü müqəddəs hesab edilməsi aid etmək olar ki, bu səbəbdən həmin ərazinin bir hissəsini ya dünyəvi, ya da başqa bir dini hökmün altına salmaq, onu bütöv şəkildə dəyərdən salacaqdır. Bu səbəbdən bölünməzlik, ümumiyyətlə güzəştə getməyə və ya bölüşməyə əsaslanan klassik münaqişə həllinə problem yaradır. Üçüncü izahat isə zaman üfüqlərindəki fərqlərə yönəlmişdir. Buradakı arqument ondan ibarətdir ki, dini xadimlər və onların dünyəvi müxalifləri vaxtı fərqli qəbul edirlər, çünki birincilər daha uzun zaman üfüqdədir və buna görə də məqsədlərinə çatmaq üçün qısa müddətdə daha yüksək xərcləri çəkməyə hazır ola bilərlər.

Konfessional faktorlu münaqişələrin artması və belə münaqişələrin həllində yaranan xüsusi mürəkkəblik, əsas verir ki, bu tip münaqişələrinin yaranmasının qarşısının alınmasına daha çox diqqət yetirilsin. Burada iki əsas yanaşma mövcuddur. Bunlar müqəddəsliyi münaqişədən uzaqlaşdırmaq və ənənəvi münaqişələrin həlli vasitələrini dinə münasibətdə uyğunlaşdırmaq yollarıdır. İlk yanaşma, tərəflərin mübarizə apardığı məsələlərin

dini ölçüsünü kiçiltməyə çalışır. Bu prosesin məqsədi, nəticədə dini məsələləri münaqişədən çıxartmaq və ya digərlərinə nisbətən əhəmiyyətini azaltmağı hədəfləyən müxtəlif münaqişə məsələlərində aktorun prioritet sıralamasını dəyişdirməkdir. Alternativ olaraq, məqsəd tərəflərin dinin daha mülayim və kooperativ aspektlərinə diqqət yetirərək dini mesajı yenidən qurmaları ola bilər. Münaqişələr vasitəçinin fəaliyyət dairəsindən kənar olan struktur dinamikasında baş verən dəyişikliklər səbəbindən də mərkəzləşdirilməmiş hala gələ bilər. Münaqişənin tərəflərindən biri, xüsusilə şiddətli münaqişə davranışı ilə əlaqədar olaraq əsas tərəfdarlarının dəstəyini itirə bilər. Eynilə, bütün aktorların yenidən yerlərini dəyişdirməyə məcbur edən yeni bir qrup ortaya çıxa bilər ki, bu da daha mülayim və ya həddindən artıq ifrat qrupa çevrilməyə səbəb ola bilər. Bundan əlavə, cəmiyyətdə bir dəyişiklik ola bilər ki, bu da cəmiyyətin müxtəlif təbəqələri arasındakı dini uçurumun daralmasına gətirib çıxarır və nəticədə məsələnin dini ölçüsünü daha az aktuallaşdırır.

Dini dünyagörüşlərin dərin emosional təbiətini nəzərə alaraq insanlar və cəmiyyətlər inanclarından imtina etmək üçün qəbul edilən təzyiqlərə güclü reaksiya göstərməyə meyllidirlər. Nəticədə, dini təsiri kiçiltmək və ya dini baxışları müzakirə etmək cəhdləri qütbləşməyə və sərt mövqelərə səbəb ola bilər. İlkin yanaşmadan fərqli yanaşma xətti klassik münaqişələrin həlli mexanizmlərinin konfessional faktorlu münaqişələri həll etmək üçün uyğunlaşdırılmasına yönəlmişdir. Bu yanaşma, dinin yalnız identifikasiya vasitəsi kimi deyil, həm də öz-özlüyündə ziddiyyətli bir məsələ kimi bir qarşıdurmada əsas komponent ola biləcəyini qəbul edir. Nəticə etibarı ilə dini zəmin təhlil edilərkən və bu cür qarşıdurmalarla qarşılaşarkən nəzərə alınır.

Bu yanaşmaların əksəriyyəti münaqişənin həlli prosesinin mərkəzində dini inanclardakı fərqlərin müzakirəsindən kənarlaşmağı vurğulayır. Bunun əvəzinə, düşüncə və inancların şübhə altına alınmadığı və ya etiraz edilmədiyi bir təhlükəsiz məkan yaratmaqdır. Bu proses tərəflərin inanclarının praktik təsirlərini yenidən şərh etməyə imkan verəcək şəkildə qurulmuşdur. Əgər diqqət aktorların inanclarını müzakirə etməyə yönələrsə, hər iki tərəf onları müdafiə edəcək və bu münasibətlərin sərtləşməsinə gətirib çıxaracaqdır. Bu yanaşma, tərəflərin münaqişəyə birgə praktik həll yollarını tapmaq və həyata keçirməkdən ibarətdir. Bu, fərqləri ziddiyyətli olmayan bir şəkildə idarə etməyə imkan verir, aktorlar arasındakı inamı artırır və hər qrupa inanclarına sadiq qalaraq praktik həll yolları üzərində mövqelərini yenidən qiymətləndirməyə imkan verir. Birgə praktik həll yollarına güclü diqqət qarşılıqlı anlaşma çətinlikləri nəzərə alınmaqla xüsusilə vacib olan tərəflər arasında bir əlaqə forması kimi qəbul edilir. Nizamlamada dəyər fərqlərini həll etmək məqsədindən uzaqlaşmaq qəribə görünsə də, bu yanaşmanın gücü ondadır ki, tərəflərin öz identikliyinə sadiq qalmalarına imkan verir. Bu baxımdan, bu yanaşma dinin özünəməxsus bir problem olmadığını, əksinə ziddiyyətlərin praktik səviyyədə həll olunmasından qaynaqlandığını xatırladır.

Bütün bunlarla yanaşı, əlbəttə ki, müasir dövrün əsas tələbi sivilizasiyalararası dialoqun rolunu konfessional faktorlu münaqişələrin qarşısının alınması, nizamlanması və həlli istiqamətində diqqətdən kənar saxlamaq mümkün deyil. Dini fərqliliklərin qarşıdurma mənbəyinə çevrildiyi məqamlarda, sülh və sabitliyi bərqərar etmək baxımından sivilizasiyalararası dialoqu genişləndirmək, qarşılıqlı əməkdaşlığa təşviq etmək zəruri hala çevrilir. XXI əsrin qloballaşma və inteqrasiya meyli dünyada ümumbəşəri universal dəyərlər əsasında birləşməyi məqsəduyğun edir. Bütün dünya mövcud planetar problemlərin və təhlükələrin aradan qaldırılması üçün birlik olub çalışmalıdır. Bir vaxtlar regional və milli məsələlər olaraq nəzərdən keçirilən iqtisadi, ekoloji, demoqrafik, ictimai-siyasi və s. bu kimi problemlər müasir dövrdə artıq qlobal xarakter daşıyır. Dövlətlərarası əlaqələrin genişlənməsi, informativ mübadilənin artması və elmi-texniki tərəqqi dünyada yeni reallıq yaratmışdır. Dünyada mövcud sivilizasiyalar arasında dialoqun vacibliyi və əhəmiyyəti aydınlaşdırılmalı, dövlətlərin inkişaf perspektivlərini müəyyənləşdiyi belə bir dövrdə daha da dərindən dərk olunmalı və sivilizasiyaların dialoqu istiqamətində dünyanın müxtəlif ölkələrində, Birləşmiş Millətlər Təşkilatı kimi müxtəlif qurumlar səviyyəsində fəaliyyət göstərilməlidir. (1)

## Nəticə

Beləliklə, dövlətlərarası səviyyədə baş verən konfessional faktorlu münaqişələrin nizamlanması problemləri, həmçinin həlli istiqamətində üzləşdiyi çətinliklər araşdırıldı. İsrail-Fələstin, Hindistan-Pakistan kimi bu tip dini amilin çıxış etdiyi konfliktlərin müasir dövrdə həllini gecikdirən əsas məqamlar təhlil olundu və bir neçə yanaşma nəzərdən keçirildi. Belə ki, gəlinən nəticələr əsasən bu yöndə oldu ki, konfessional faktorlu dövlətlərarası münaqişələrin nizamlanması və həlli zamanı, bu münaqişələri dini kontekstdən kənarlaşdırmaq; din və dünyəvilik arasında balans yaratmaq; heç biri dini digərindən üstün tutmadan dövlətin tərəfsiz mövqeyini təmin edərək bütün konfessiyaların birgəyaşayışı üçün davamlı inkişaf strategiyasını qurmaq; ümumbəşəri universal dəyərlərdən istifadə edərək tərəflərin danışıqlara girməsi üçün vasitəçilik; sivilizasiyalararası dialoqu təmin etmək; klassik münaqişə həlli ənənəsindən istifadə; bu münaqişələr hələ yaranmadan qarşısı alınmasına diqqətin artırılması bura daxildir.

**Ədəbiyyat**

1. Aliyeva A. Dialogue of civilizations: as a basic requirement of modern times.
2. https://sesqazeti.az/news/analytics/379654.html
3. Loparev A.V. Conflictology. 2018.
4. https://studme.org/281329/psihologiya/spetsifika_uregulirovaniya_etnokonfessionalnyh_konfliktov
5. Tanner F. Conflict prevention and conflict resolution: limits of multilateral participation.
6. https://www.icrc.org/ru/doc/resources/documents/misc/57jqq2.htm
7. Gurevich P.S. Religious Studies: A Textbook for Undergraduates. Moscow - 2014.
8. https://studme.org/60129/religiovedenie/rol_religii_sovremennom_mire
9. Bashkir State University. Conflictology.
10. https://studfile.net/preview/7311904/page:3/
11. Rogochaya G.P. Religious Conflicts in the Modern World: Approaches to Research.
12. https://elar.urfu.ru/bitstream/10995/78171/1/978-5-88687-251-4_105.pdf
13. Baumann J., Finnbogason D. Rethinking mediation: resolving religious conflicts.
14. https://css.ethz.ch/content/dam/ethz/special-interest/gess/cis/center-for-securities-studies/pdfs/PP6-1.pdf

**Rəyçi: dos. Ç.Məmmədov**

Göndərilib: 17.04.2021 Qəbul edilib: 18.04.2021